**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# S Ə R Ə N C A M

**“Naxçıvan Muxtar Respublikası Dövlət Su Ehtiyatları Agentliyinin yaradılması və fəaliyyətinin təşkili barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 20 may tarixli 239-VI FR nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında**

“Naxçıvan Muxtar Respublikası Dövlət Su Ehtiyatları Agentliyinin yaradılması və fəaliyyətinin təşkili barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 20 may tarixli 239-VI FR nömrəli Fərmanının (bundan sonra – Fərman) icrasını təmin etmək məqsədilə:

1. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Dövlət Su Ehtiyatları Agentliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, bir ay müddətində:

1.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin hüquqi aktlarının Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

1.2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

2. Naxçıvan Muxtar Respublikasının Dövlət Su Ehtiyatları Agentliyi bir ay müddətində:

2.1. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla, Fərmanın 5-ci hissəsi ilə yaradılmış “Su Meliorasiya Xidməti” publik hüquqi şəxsin (bundan sonra – Xidmət) nizamnaməsi və nizamnamə fondunun miqdarı barədə təkliflərini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

2.2. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi ilə birlikdə Xidmətin maddi-texniki təminatı ilə bağlı məsələləri həll etsin.

3. Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları iki aydan gec olmayaraq, Fərmanın icrasını təmin etmək məqsədilə öz səlahiyyətləri daxilində normayaratma vəzifələrindən irəli gələn tədbirlər görüb, normativ hüquqi aktlarını və ya təkliflərinin olmadığı barədə məlumatı Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinə təqdim etsinlər və icra vəziyyəti tələb etdikdə, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versinlər.

4. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların Fərmana uyğunlaşdırılmasını təmin edib, bu barədə üç ay müddətində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

5. Bu Sərəncamın 1-ci, 3-cü və 4-cü hissələrinin icrası Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının Hüquq şöbəsinə, 2.1-ci bəndinin icrası Aqrar məsələlər və ekologiya şöbəsinə, 2.2-ci bəndinin icrası isə İqtisadiyyat şöbəsinə həvalə edilsin.

6. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, “ 3 ” iyun 2024-cü il

№ 45s